# “Heyz səni saxladığı müddətcə gözlə, sonra yuyun”

Möminlərin anası Aişədən (Allah ondan razı olsun) belə söylədiyi rəvayət edilir: Abdurrahmən ibn Avfın zövcəsi olan Ummu Həbibə bint Cəhş qan haqqında Allah Rəsuluna (Allahın salavatı və salamı onun üzərinə olsun) şikayət etdi (bu barədə soruşdu). Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) isə: “Heyz səni saxladığı müddətcə gözlə, sonra yuyun” dedi. O, isə hər namaz üçün qüsl alardı.
[Səhih] [Muslim rəvayət etdi]

Qadın səhabələrdən biri Peyğəmbərə (Allahın salavatı və salamı onun üzərinə olsun) daima baş verən qanaxması olduğundan şikayət etdi. Buna görə də normal olmayan bu hal baş verməzdən əvvəl heyzin onu namazdan uzaqlaşdırdığı müddətcə namazı dayandırmağı, sonra yuyunmağı və namaz qılmağı ona əmr etdi. O qadın hər namaz üçün könüllü olaraq qüsl alardı.



النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee